

# Maqsud İbrahimbəyov - 90

Biblioqrafik icmal

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

# Maqsud İbrahimbəyov - 90

## Biblioqrafik icmal

BAKI - 2025

**Tərtibçilər**: **Aygün Koçak**
**Aygün Məmmədova**

**İxtisas redaktoru:** **Kərim Tahirov,**
*Professor, Əməkdar mədəniyyət işçisi*

**Maqsud İbrahimbəyov-90**: biblioqrafik icmal: [Elektron resurs] /tərt.: A.Koçak, A.Məmmədova; ixtisas red. K.Tahirov.- Bakı, 2025.- 55 s.

**© Azərbaycan Milli Kitabxanası, 2025**

**Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2025-ci ilin may ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, Dövlət mükafatı laureatı, tanınmış ictimai xadim Maqsud Məmmədibrahim oğlu İbrahimbəyovun anadan olmasının 90 ili tamam olur.

Maqsud İbrahimbəyov parlaq istedada malik nasir kimi çoxşaxəli fəaliyyəti ilə Azərbaycan bədii fikrinin zənginləşməsində təqdirəlayiq rol oynamış söz ustalarındandır. Ötən əsrin 60-cı illərində yeni ədəbi prosesin formalaşmasında yaxından iştirak edən sənətkar ərsəyə gətirdiyi dəyərli nəsr nümunələrində qəhrəmanlarının xarakterini dərindən açaraq dolğun və rəngarəng obrazlar yaratmışdır. Onun, eyni zamanda dramaturq, kinossenarist və rejissor kimi Azərbaycan kinematoqrafiyasının inkişafında mühüm xidmətləri vardır. Milli koloritin qabarıq təsviri, adət-ənənələrə bağlılıq, xüsusən Bakı mühitinin özünəməxsus mənzərəsinin təsviri Maqsud İbrahimbəyov yaradıcılığını səciyyələndirən başlıca cəhətlərdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafına töhfələr vermiş Xalq yazıçısı Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq

yazıçısı Maqsud İbrahimbəyovun 90 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 13 fevral 2025-ci il***

# İcmal haqqında

Görkəmli yazıçı və parlaq şəxsiyyət Maqsud İbrahimbəyov XX əsr Azərbaycan ədəbiyyatının simvollarından birinə çevrilib. Maqsud İbrahimbəyovun hekayə və povestlərinin qəhrəmanları milyonlarla oxucu üçün yaxşı tanış və dost olub. İndi də yeni nəsil onlarla tanış olur və indiki yeniyetmələrin qəlbində Maqsud İbrahimbəyovun təxəyyül gücü ilə doğulan, onun qələmi ilə canlanan həmyaşıdlarının macəraları və həyəcanları, onların özləri ilə baş verir, canlı əks-sədasını tapır.

Təqdim edilən biblioqrafik icmalda "Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı", Xalq yazıçısının həyat və fəaliyyətini əks etdirən yazı, Əməkdar jurnalist Əli Nəcəfxanlının yubileylə bağlı dərc etdirdiyi "Ədəbiyyatımızın zadəgan nasiri" adlı məqalə yer almış, yazıçının müxtəlif dillərdə çap edilmiş kitabları, həmçinin ona həsr edilmiş kitab və dövri mətbuat materialları əks olunmuşdur. Sonda, "Əlavələr" hissəsində isə ictimai xadimə Əməkdar incəsənət xadimi, Xalq yazıçısı adlarının verilməsi, adına Yaradıcılıq Mərkəzinin açılması, ədibin Şöhrət, Şərəf və İstiqlal ordenləri ilə təltif edilməsi haqqında fərman və sərəncamlar verilmişdir.

İcmal ilə bağlı rəy və təkliflərini Milli Kitabxanaya ünvanlayan mütəxəssis və istifadəçilərə əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

**Ünvan:** AZ-1000 Bakı şəh., Xaqani küç. 57
**E-mail:** metodik_teminat@anl.az
**URL:**www.millikitabxana.az

# Maqsud İbrahimbəyov - 90

Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov 1935-ci il may ayını 11-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1955-1960-cı illərdə Azərbaycan Texniki Universitetinin inşaat fakültəsində təhsil almışdır. Eyni zamanda universitetin çoxtirajlı "Politexnik" qəzetində ştatdankənar müxbir kimi çalışmışdır. 1958-1959 illərdə inşaat dəstələrinin tərkibində istehsalat praktikasını xam torpaqlarda tikinti işlərində keçirtmişdir. 1960-1962-ci illərdə Azərbaycan SSR Tikinti Nazirliyinin ağır sənaye inşaatı trestində mühəndis işləmişdir.

O, 1962-1964-cü illərdə Moskva Ali Ssenaristlər Kursunda müdavim, 1964-1971-ci illərdə Mərkəzi Televiziya və Radio Verilişləri Komitəsinin Azərbaycan üzrə xüsusi müxbiri, 1971-1973-cü illərdə Moskva Ali Rejissorluq Kurslarında müdavim olmuşdur.

Dünyanın və Azərbaycanın müxtəlif jurnallarında romanları, povestləri və hekayələri dərc olunmuşdur. Bu əsərlər sırasında: "Bütün yaxşılıqlara görə ölüm", "Truskavetsə kim gedəcək", "Ondan yaxşı qardaş yox idi", "Qoy o bizimlə qalsın", "Bayquş gəldi" və başqalarını qeyd etmək olar. Nəsr əsərləri 26 xarici dilə tərcümə olunmuşdur.

Pyesləri - "Mezazoy əhvalatı" (1975), "Bütün yaxşılıqlara görə ölüm" (1978), "Müdrik Sfinks gülümsəyir" (2001), "Final restoranı" (2006) və başqaları müxtəlif illərdə tanınmış səhnə xadimlərinin quruluşunda və ifasında oynanılmışdır. Onların sırasında Boris Ravenskixin (Moskva Malıy dramatiçeski teatrı), Zinoviy Karaqodskinin (Leninqrad Gənc tamaşaçılar teatrı), Tofiq Kazımovun (Azərbaycan Milli dram teatrı) və başqalarının adlarını çəkmək olar.

Maqsud İbrahimbəyovun ssenariləri əsasında müxtəlif ölkələrdə 18 bədii və 7 sənədli film çəkilmişdir. Onlardan "Bizim Cəbiş

müəllim", "Uşaqlığın son gecəsi", "Yarımçıq qalmış serenada", "Truskavetsə kim gedəcək?", "Gözəl bir gündə", "Sonuncu intervü", "Bayquş gəldi", "Qızıl reys", "Axırı yaxşı qurtaran əhvalat", "Bakı müharibə illərində" filmləri ölkə kinematoqrafiyasının qızıl fonduna daxil olub.

Azərbaycan Respublikası Sülh Komitəsinin sədri, 1995, 2000, 2005-ci millət vəkili, Azərbaycan Respublikası Əsilzadələr Məclisinin sədri, Luiziana Ştatının Fəxri Senatoru, Minneapolis şəhərinin Fəxri vətəndaşı, Azərbaycan Respublikası PEN klubunun prezidenti olmuşdur.

1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Yazıçının xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1976-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuş, 1979-cu ildə "Əməkdar İncəsənət Xadimi", 1998-ci ildə "Xalq Yazıçısı" fəxri adlarını almış, Azərbaycan mədəniyyətinin və ədəbiyyatının inkişafında çoxillik səmərəli və zəngin fəaliyyətinə görə Azərbaycan Respublikasının ali dövlət təltifləri olan "İstiqlal", "Şərəf" və "Şöhrət" ordenlərinə layiq görülmüşdür. Həmçinin Roma papasının, Rusiya Federasiyasının "Dostluq", "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif olunmuşdur.

Maqsud İbrahimbəyov 2016-cı il mart ayının 22-də Bakı şəhərində vəfat etmiş, I Fəxri Xiyabanda dəfn edilmişdir.

2023-cü ildə Nadejda İsmayılovanın Maqsud İbrahimbəyova həsr olunmuş "Maqsud əbədidir" kitabı işıq üzü görmüşdür.

***Mənbə:*** *Əlamətdar və tarixi günlər təqvimi - 2025 /Azərbaycan Milli Kitabxanası; baş red. K.Tahirov; məsul katib Ə.İsmayılova; red. X.Abbasova.- Bakı: Zərdabi Nəşr, 2024.- 958 s.*
*https://www.anl.az/down/Teqvim.2025.pdf*

# Ədəbiyyatımızın zadəgan nasiri

May ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, dövlət mükafatı laureatı, tanınmış ictimai xadim, 3 çağırış Milli Məclisin deputatı seçilmiş Maqsud İbrahimbəyovun anadan olmasının 90 ili tamam olur. Fevralın 13-də Prezident İlham Əliyev bu yubileyin keçirilməsi ilə əlaqədar sərəncam imzalayıb.

Sənəddə Maqsud İbrahimbəyov parlaq istedada malik nasir kimi çoxşaxəli fəaliyyəti ilə Azərbaycan bədii fikrinin zənginləşməsində təqdirəlayiq rol oynamış söz ustalarından biri kimi belə xarakterizə olunur: Ötən əsrin 60-cı illərində yeni ədəbi prosesin formalaşmasında yaxından iştirak edən sənətkar ərsəyə gətirdiyi dəyərli nəsr nümunələrində qəhrəmanlarının xarakterini dərindən açaraq dolğun və rəngarəng obrazlar yaratmışdır. Onun, eyni zamanda dramaturq, kinossenarist və rejissor kimi Azərbaycan kinematoqrafiyasının inkişafında mühüm xidmətləri vardır. Milli koloritin qabarıq təsviri, adət-ənənələrə bağlılıq, xüsusən Bakı mühitinin özünəməxsus mənzərəsinin təsviri Maqsud İbrahimbəyov yaradıcılığını səciyyələndirən başlıca cəhətlərdir.

Xalq yazıçısının bir çox əsərlərini oxumuş, pyeslərinin tamaşalarına, ssenari yazdığı filmlərə baxmışam. Adı çəkilən kimi hamının sevdiyi "Bizim Cəbiş müəllim", "Uşaqlığın son gecəsi" filmləri yada düşür. Həm bu kinolentlər, həm də "Ondan yaxşı qardaş yox idi" və "Kərgədan buynuzu" əsərləri məndə də güclü təəssürat yaradıb. Elə bilirəm ki, bu povestləri yenicə oxuyub başa vurmuşam. Məşhur "60-cılar" nəslinin görkəmli nümayəndəsi olan Maqsud İbrahimbəyovun yaradıcılığına xas bütün məziyyətlər bu əsərlərdə toplanıb.

"Yaxşı qardaş" Cəlil milli xarakteri ilə sevilir. O, mühafizəkardır, özünün həyat prinsiplərinə son dərəcə sədaqətlidir.

Əsərin ilk səhifələrindən sonunadək öz prinsiplərindən bir addım da kənara çəkilmir, ata-babadan qalma adət-ənənələri özünün həyat tərzi ilə yaşadır. Atalıq etdiyi qardaşı Simurqun davranışları ilə barışa bilmir. Birqatlı deyil, mürəkkəb xarakterli polifonik obraz olan Cəlil hətta çox uğursuz bir talenin daşıyıcısı kimi də sevilir, ölümü ilə oxucunu təsirləndirir, çünki son dərəcə təbiidir. Povestin ruhu adamın canına hopur və son qənaət isə bu olur ki, "Ondan yaxşı qardaş yox idi".

"Kərgədan buynuzu"nda isə alim qayınatasından buynuzun istifadəsi ilə hazırlanan türkəçarənin insanı cavan saxladığını eşidən və əslində, ölümdən qorxan birinin başına gələnlər haqqında komik, hətta satirik bir hekayət təqdim olunur. Əsərdə ölüm mövzusu fərqli işlənib. Əla yumor və Bakı koloriti ilə zənginləşdirilmiş, ikinci cavanlığı əldə etməyə can atan adam, az qala, insanı düşüncələrinə hakim olur.

Əlbəttə, bunları xatırlamaqla görkəmli qələm sahibinin digər parlaq əsərlərinə heç də kölgə salmaq istəmirəm. Onun əsərləri 36 xarici dilə tərcümə olunub və dünyanın bir çox ölkəsində dərc edilib. Ən məşhur kitablarından "Bütün yaxşılıqlar üçün ölüm", "Truskavetsə kim gedəcək", "Qoy o bizimlə qalsın", "Bayquş gəldi" və digərlərinin adını çəkmək olar. Onun bir çox əsərləri həm Azərbaycanda, həm də ölkənin hüdudlarından kənarda müxtəlif kinostudiyalarda ekranlaşdırılıb, pyesləri isə 50 teatrda tamaşaya qoyulub. Yeri gəlmişkən xatırladım ki, 2013-cü ildə yazıçının oğlu Murad İbrahimbəyov da "Ondan yaxşı qardaş yox idi" povesti əsasında eyniadlı maraqlı film çəkib.

Böyük istedad sahibinin "Qəza", "Bir az da sevinc", "Eşitmədiyim mahnı" və s. adlı kitabları Moskva nəşriyyatlarında kütləvi tirajla buraxılıb. "Bayquş gəldi" və "Bütün yaxşılıqlar üçün ölüm" əsərlərinə görə ona Azərbaycanın Dövlət mükafatı verilib.

Əmək fəaliyyətinə ali təhsilli mühəndis kimi başlayan Maqsud İbrahimbəyov sonra Moskvada Ali Ssenaristlər və Ali Rejissorluq kurslarını bitirib, Mərkəzi Televiziya və Radio Verilişləri Komitəsinin Azərbaycan üzrə xüsusi nümayəndəsi olub.

Azərbaycan Yazıçılar Birliyinin katibi, Penklubun (beynəlxalq yazıçılar təşkilatının) və "Əsilzadələr məclisi"nin sədri, Amerikanın Luiziana ştatının fəxri senatoru və Minneapolis şəhərinin fəxri vətəndaşı seçilmiş unudulmaz yazıçımız 9 ildən bəri aramızda olmasa da, özünə əbədi həyat qazana bilib. Elə 2023-cü ildə Nadejda İsmayılovanın onun haqqında yazıb çap etdirdiyi kitabı da "Maqsud əbədidir" adlanır.

Bir neçə il əvvəl Prezident sərəncamı ilə onun xatirəsini əbədiləşdirmək üçün İçərişəhərdə "Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi" yaradılıb. Açılış mərasimində iştirak edən Birinci vitse-prezident Mehriban Əliyeva deyib: "O, əsl vətənpərvər idi. O, bütün qəlbi ilə Azərbaycana, öz torpağına bağlı idi. O, cəsarətli vətəndaş mövqeyi olan insan idi. O, öz ideallarını və prinsiplərini bütün həyatı boyu dəyişməyib. O, uzun ömrünü səmimi, hər şeylə maraqlanan, biganəlikdən uzaq bir insan kimi yaşadı. O, həyatdan getdi, ancaq onun əsərləri, böyük bədii-mənəvi irsi – kitabları, pyesləri, ssenariləri, esseləri qaldı. Onun hər bir əsəri bu günümüz və dünənimizlə heyrətamiz dərəcədə səsləşir və şübhə etmirəm ki, sabah da aktual olacaq. Onun hər bir əsəri yaşayır. Buna görə də Maqsud müəllim yaşayır. İnsanlar – onun dostları, yaxınları, doğmaları, onu sevən, ona hörmət edən, həyatının bütün mərhələlərində onun yanında olan insanlar qalır. Ən əsası da, Maqsud müəllimin ilham pərisi Anna xanım buradadır"...

Yazıçının dostu, ünlü jurnalist, tərcüməçi və aparıcı Mixail Qusman isə deyib: "Əsilzadələr Məclisi"nə rəhbərlik edən Maqsud İbrahimbəyovun özü həm genetik, həm ruhən zadəgan nəslindən olub.

Vətənpərvərliyin və xeyriyyəçilik fəaliyyətinin təbliği, uşaqlara, yoxsul ailələrə və müharibə veteranlarına yardım göstərməklə məşğul olan Azərbaycan Respublikasının Milli Sülh Komitəsinin rəhbəri Maqsud İbrahimbəyovun bu sahədəki fəaliyyəti də genişliyi ilə seçilib".

Xatirələr zəngindir. Oxuduqca qürur duyuruq ki, Xalq yazıçısı Maqsud İbrahimbəyov qeyri-adi və gündəlik hadisələr haqda özünəməxsus tərzdə yazıb, personajlarının mənəvi dünyasını dərindən tədqiq edərək, xasiyyətlərini oxucuya çatdırıb. Bir çox əsərlərində yazıçı ümumbəşəri problemlər kontekstindən çıxış edərək, öz ənənələri ilə güclü olan Şərq insanının həyat tərzini göstərib. Yazdıqları onun sabaha məktubları kimi dəyərlidir.

***Mənbə:*** *Nəcəfxanlı, Ə. Ədəbiyyatımızın zadəgan nasiri: Maqsud İbrahimbəyov – 90 /Əli Nəcəfxanlı //Xalq qəzeti.- 2025.- 23 fevral (№41).- S.10.*
*https://www.anl.az/down/meqale/xalqqazeti/2025/fevral/935845(meqale).pdf*

# Kitabları

## Azərbaycan dilində

### 2021

**Kərgədan buynuzu:** roman: [rus dilindən tərcümə] /M.İbrahimbəyov; rus dilindən tərc. M.Muradlı; red. S.Babullaoğlu; naşir M.Xan.- [Bakı]: Mücrü, Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi, [2021].- 155, [1] s.

*Roman AYB-nin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin "Yeni DƏB" seriyasında Murad Muradlının tərcüməsində "mücrü" nəşriyyatı tərəfindən Səlim Babullaoğlunun redaktəsi ilə nəşr edilmişdir.*
*Alim qayınatasından kərgədan buynuzu istifadə olunaraq hazırlanan türkəçarənin insanı gənc saxladığını eşidən və əslində, ölümdən qorxan birinin başına gələnlər haqqında komik, hətta satirik bir əsərdir.*



**2020**

**Qara paltarlı qadın:** [rus dilindən tərcümə: povest] /M.İbrahimbəyov; tərc. Ə.Qiyas; üz qabığının illüstrasiyası R.Mehdiyev.- [Bakı]: TEAS Press, [2020].- 162 s.

*TEAS Press Nəşriyyat evi tərəfindən çap edilmiş kitabın arxa cildində birinci vitse=prezident Mehriban Əliyevanın, rejissor, rəssam Tərlan Qorçunun, kinossenarist Pavel Finnin, kinoşünas Konstantik Şerbakovun yazıçı və əsər haqqında fikirləri yer almışdır.*
*Povest rus dilində 2012-ci ildə, həmçinin Türkiyənin İstanbul şəhərindəki Bilnet nəşriyyatında işıq üzü görmüşdür.*



**Uşaqlığın son gecəsi: hekayələr:** [rus dilindən tərcümə] /M.İbrahimbəyov [ön söz]; tərc. Ə.Qiyas; illüstrator O.Qarayev.- [Bakı]: [TEAS Press], 2020.- 387 s.

*Bu kitabda müəllifin əsasən yeniyetmələr və gənclər üçün yazdığı hekayələri toplanıb. Hekayələrdə II Dünya müharibəsi dövründə arxa cəbhə insanların həyatı, Abşeron bağlarında keçən yay günləri, sovet dövrünün yaşayış tərzi tamamilə f\rqli baxış bucağından t\qdim olunur.*



## 2019

**Ondan yaxşı qardaş yox idi**: [povest: toplu] /Maqsud İbrahimbəyov; [tərc. S.Budaqlı; məsləhətçi və red. S.Babullaoğlu; ill. O.Qarayev; dizayn T.Əmirxanov; Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi].- Bakı: [n. y.], 2019.- 216, [2] s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000755803

*Kitaba eyniadlı roman və "Cəhənnəmə sərinlik gəldi" adlı əsər daxil edilmişdir. Sonda Mixail Şvıdkovun yazıçı haqqında kiçik yazısı verilmişdir. Kiabın arxa cildində akademik Nərgiz Paşayeva, kinodramaturq Ramiz Fətəliyev, şair Səlim Babullaoğlu və Amazing Adventures in Education-un baş direktoru Şelli Kukun yazıçı haqqənda düşüncələri əksini tapmışdır.*
*Kitab AYB-nin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi tərəfindən nəşrə hazırlanmış, yazınının adını daşıyan Yaradıcılıq Mərkəzi tərəfindən çap edilmişdir.*



## 2018

**Qoy o, bizimlə qalsın: Bütün yaxşılıqlara görə ölüm:** [toplu]: orta və yuxarı sinif şagirdləri üçün] /M.İbrahimbəyov; tərc. M.Muradlı; red. S.Babullaoğlu; ill. O.Qarayev; [ön söz L.Əliyeva].- Bakı: [Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi], 2018.- 218 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000666572

*Maqsud İbrahimbəyovun "Bütün yaxşılıqlara görə ölüm" və "Qoy o bizimlə qalsın" adlı əsərlərində balaca qəhrəmanın bütün düşüncələri, həyacanı, hissləri son dərəcə emosional və dolğun boyalarla əks olunub. Əsər o qədər real təsir bağışlayır ki, oxucu istər-istəməz bu obrazla isinişir və özünü uşaq yaşında hiss etməyə başlayır.*



## 2007

**Baltimor skunsu:** (Azərbaycan və rus dillərində) /Maqsud İbrahimbəyov; Redaktorlar. İ.Qasımzadə, T.Quliyev.- Bakı: Səda, 2007.- 248 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000036658

*Kitabda ən yeni tarixin xronikası, İran qambiti, Baltimor skunsu və əksinqilab etüdü haqqında məlumatlar verilmişdir.*



**“Final” restoranı: Pyes** /M.İbrahimbəyov.- Bakı: Səda, 2007.- 112 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000037572

*İntiqam Qasım-zadə və Tərlan Quliyevin redaktorluğu ilə “Üns” seriyasından “Səda” nəşriyyatında çapdan çıxmış kitaba Nadejda İsmayılovanın “Biri var idi, biri yox idi” adlı yazısı daxil edilmişdir. İki dildə (Azərbaycan və rus) çap edilmiş tragikomediya janrındakı əsər aktual və kəskin süjetə malikdir.*



**Seçilmiş əsərləri**: 2 cilddə /M.İbrahimbəyov; tərt. ed. və red. T.Quliyev; [ön söz N.İsmayılova; buraxıl. məsul U.Rəhimoğlu].- C.1.- Bakı: AVRASİYA PRESS, 2007.- 388, [4] s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000040541

*M.İbrahimbəyovun seçilmiş əsərlərindən ibarət ikicildliyin birinci cildinə onun müxtəlif illərdə yazdığı "Ondan yaxşı qardaş yox idi", "Yaxşılıqların əvəzində ölüm", "Yazılmayan məktublar", "Bayquş gəlmişdi", "Kərgədan buynuzu" povestləri daxil edilmişdir.*
*Kitab Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə "Müasir Azərbaycan ədəbiyyatı" seriyasından nəşr edilmiş və ölkə kitabxanalarına hədiyyə edilmişdir.*



**Seçilmiş əsərləri**: 2 cilddə /M.İbrahimbəyov; tərt. ed. və red. T.Quliyev; [buraxıl. məsul U.Rəhimoğlu].- C.2.- Bakı: AVRASİYA PRESS, 2007.- 238, [2] s.

*Kitabın II cildinə ədibin 1941-1945-ci müharibə illərindəki siyasi olaylardan bəhs edən "Dənizdə qasırğa" romanı və "Müdrik sfinks gülümsəyir" pyesi daxil edilmişdir.*



**2005**

**Əsas versiya:** [Məqalələr] /M.İbrahimbəyov.- Bakı: Səda, 2005.- 96 s.
http://web2.anl.az:81/read/page.php?bibid=vtls000008354

*Kitabda "əsas versiya" başlıqlı Bakının gecə həyatından səhnələri əks etdirən yazı, həmçinin Azərbaycan və rus dillərində yazıçının "Nezavisimaya qazeta"nın 10 iyun 2005-ci il sayında dərc edilmiş "Qara böv adamlara hücum edir" adlı məqaləsi və həmin qəzetin 19 may 2005-ci il sayında işıq üzü görmüş "Əksinqilabi etüd" adlı məqaləsi Azərbaycan, rus və ingilis dillərində yer almışdır.*



**Fraqmentlər** /M.İbrahimbəyov; red. İ.Qasım-zadə, T.Quliyev; ön söz. N.İsmayılova.- Bakı: Səda, 2005.- 400 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000108662

*Kitaba publisistik janrda yazılmış məqalələr daxil edilmişdir.*



**Müdrik sfinks gülümsəyir: pyes** /M.İbrahimbəyov; red.: İ.Qasım-zadə, T.Quliyev.- Bakı: [Səda], 2005.- 159 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000666552

P*yes 2 dildə (Azərbaycan və rus) "Səda" nəşriyyatı tərəfindən İntiqam Qasım-zadə və Tərlan Quliyevin redaktəsi ilə nəşr edilmişdir.*



## 1990

**Sabah gec olacaq** /M.İbrahimbəyov; Red. M.İsmayılzadə, L.Mahmudova; Rəssam. M.Ksenjuk.- Bakı: Azərnəşr, 1990.- 32 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000065072

*Kitabda müəllifin Azərbaycan xalqının və Azərbaycan ziyalısının DQMV ilə bağlı təxribata faktiki olaraq ilk cavab - çıxışı verilmişdir.*



**1985**

**Böyük şəhərin nağılları** /M.İbrahimbəyov; [red. Z.Cavanşir].- Bakı: Gənclik, 1985.- 282, [2] s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000177548

*Kitaba "Bütün yaxşılıqlara – ölüm", "Bayquş gəlmişdi", "Kərgədan buynuzu", "Ondan yaxşı qardaş yox idi" adlı povestlər daxil edilib.*



## 1971

**Ən vacib müsahibə: bədii film** /Ssen. mül. M.İbrahimbəyov; [red. İ.Məhərrəmov].- Bakı: [s. n.], 1971.- 6, [1] s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000284623

*Yazıçının ssenarisi əsasında hazırlanmış bədii filmin quruluşçu rejissoru Eldar Quliyev, quruluşçu operatoru Rasim Ocaqov, quruluşçu rəssamı Kamil Nəcəfzadə, bəstəkarı isə Polad Bülbüloğludur.*
*C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan əsərdə əsas rolları Hacı Murad (Zaur) və Ariadna Şenkelaya (Səidə) ifa edirlər. Film müasir ictimai əxlaqın əsas cəhətlərindən birinə - ciddi məsuliyyət hissinə həsr edilmişdir.*



## Rus dilində

## 1987

**Избранная проза**: в двух томах /М.Ибрагимбеков; [ред. Т.Рашевская].- Т.2.- Баку: Азернешр, 1987.- 350, [2] с.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000809448

*В книге даны.: во второй том вошли рассказы, повести “За все хорошее-смерть” и “Запах жизни”, а также пьесы “Мезозойская история” и “Мужчина для молодой женщины”.*



## 1984

**История с благополучным концом: рассказы, повести, пьеса** /М.Ибрагимбеков; [ред. Т.Гусейн-заде; худож. Э.Мамедов].- Баку: Язычы, 1984.- 596, [4] с.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000781738

*В содерж.: Пьеса: Мезозойская история; Повести: Кто поедет в Трускавец; И не было лучше брата; Прилетела сова; Пусть он останется с нами; За все хорошее-смерть; Концерт для баритона с оркестром; Рассказы: В один прекрасный день; Уютное место в сквере; Немного весенного праздника; Последняя ночь детства; Наш сосед Македон и др.*



# Notlar

## 2017

**Əmirov, F.** Min bir gecə [Notlar]: ikipərdəli balet: [ərəb xalq nağılları əsasında] /Fikrət Əmirov; libretto: M.İbrahimbəyov, R.İbrahimbəyov, N.Nəzirova; musiqi red. R.Xəlilov; [buraxıl. məsul S.İsmayılova; dizayn S.Bayramov, D.Kuznetsova].- Pərdə 1.- Bakı: Şərq-Qərb, 2017.- 199, [5] s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000579133

*I pərdədə "Müqəddimə", I pərdə, "Şəhriyar və Nuridənin dueti", "Oxatanların rəqsi", "Şəhriyarın variasiyaları", "Nuridənin monoloqu", "Orgiya", "Nuridənin ölümü", "Şəhriyarın monoloqu", "Cəlladlar", "Şəhriyarın qəzəbi", "Cəlladların təqib etdiyi qadınlar, Qadınların göz yaşı və yalvarışları", "Şəhriyarın çılğınlığı", "Şəhrizad", "Şəhriyar və Şəhrizadın dueti"* bölmələri verilmişdir.



**Əmirov, F.** Min bir gecə [Notlar]: ikipərdəli balet: [ərəb xalq nağılları əsasında] /F.Əmirov; libretto: M.İbrahimbəyov, R.İbrahimbəyov, N.Nəzirova; musiqi red. R.Xəlilov; [buraxıl. məsul S.İsmayılova; dizayn S.Bayramov, D.Kuznetsova].- Pərdə 2.- Bakı: Şərq-Qərb, 2017.- 223, [5] s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000579141

*II pərdə "Gecə", I nağıl, "Cəlladlar", "Gecə", II nağıl, "Cəlladlar", "Gecə" III nağıl, "Təqib", "Mərcanənin rəqsi", "Şəhriyar və cəlladlar", "Şəhriyar nağıllar aləmində", "Şəhriyar və şahzadənin dueti", "Oxatanların rəqsi", "Şəhriyarın monoloqu", "Şəhriyarın bayramı", "Final" bölmələrindən ibarətdir.*



# Haqqında

## Kitablar

### Azərbaycan dilində

### 2023

**İsmayılova, N.** Maqsud əbədidir /Nadejda İsmayılova; tərc. Ə.Qiyas; ideya A.İbrahimbəyova; [Heydər Əliyev Fondu, Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi].- Bakı: [n. y.], 2023.- 268 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000879948

*Sənədli povest janrındakı kitab Maqsud İbrahimbəyovun zəngin həyatı barədə məlumatları çatdırır. Kitab təkcə Maqsud İbrahimbəyov haqqında olan xatirələrdən ibarət deyil, əsl bioqrafik romandır.*



## Rus dilində

## 2023

**Исмайлова, Н.** Максуд навсегда /[Надежда. Исмайлова]; идея А.Ибрагимбекова; Фонд Гейдара Алиева; Центр творчества Максуда Ибрагимбекова.- Баку: [б. и.], 2023.- 268 с.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000887656

*Написанная в жанре документальной повести она повествует о насыщенной жизни всемирно известного писателя, кинодраматурга, режиссера, лауреата орденов "Шохрат", "Истиглал" и "Шараф" Азербайджанской Республики, кандидата на соискание Нобелевской премии по литературе 2012 года Максуда Ибрагимбекова. Основу книги составляют размышления самого Максуда Ибрагимбекова: его интервью прессе о своей жизни, мысли о любимой работе, личные беседы с друзьями и коллегами за столом и т.д.*



## Məqalələr

### 2025

**Ələddinqızı, N.** Həyat lövhələrini ustalıqla yaratmış böyük sənətkar: Dövlət başçısının Sərəncamı ilə Maqsud İbrahimbəyovun 90 illiyi qeyd olunacaq /Nəzakət Ələddinqızı //Səs.- 2025.- 15 fevral (№28).- S.10.
http://www.anl.az/down/meqale/ses/2025/fevral/934894(meqale).pdf

### 2023

**Azəri, L.** "Maqsud əbədidir": Xalq yazıçısı Maqsud İbrahimbəyova həsr olunmuş kitabın təqdimatı /Lalə Azəri //Mədəniyyət.- 2023.- 9 iyun.- S.3.
http://www.anl.az/down/meqale/medeniyyet/2023/iyun/854486.htm

### 2022

**Əmirli, Ə.** Ondan yaxşı qardaş yox idi /Əli Əmirli //Elmi əsərlər /Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.- 2022.- №31.- S.47-55.
http://www.anl.az/down/meqale/elmi_eserler_admiu/2022/31/06(meqale).pdf

### 2021

**Rusca yazan milli yazıçı**: Maqsud İbrahimbəyovun kitablarının təqdimat mərasimi keçirilib //Mədəniyyət.- 2021.- 17 mart.- S.1; 3.
http://www.anl.az/down/meqale/medeniyyet/2021/mart/738659.htm

**Varislər**: Anna İbrahimbəyova: Nə qədər ki sağam, nağılımız bitməyəcək: [yazçı Maqsud İbrahimbəyovun həyat yoldaşı ilə

söhbət] /A.İbrahimbəyova; söhbətləşdi: Ə.Qiyas //Ədəbiyyat qəzeti.- 2021.- 13 fevral.- S.16-17.
http://www.anl.az/down/meqale/edebiyyat/2021/fevral/734338.htm

**2020**

**Maqsud İbrahimbəyovun hekayəsi Qırğızıstan portalında** //Mədəniyyət.- 2020.- 4 sentyabr.- S.8.
http://www.anl.az/down/meqale/medeniyyet/2020/sentyabr/715234.htm

**2018**

**Əliyeva, M.** Bakıda Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin açılış mərasimi olub: Birinci vitse-prezident Mehriban Əliyeva mərasimdə iştirak edib /Mehriban Əliyeva //Azərbaycan.- 2018.- 31 mart.- S.1-2.
http://www.anl.az/down/meqale/azerbaycan/2018/mart/584367.htm

**2017**

**Həyatı səmimi təbəssümlə təsvir edən yazıçı:** Xalq yazıçısı, kinodramaturq Maqsud İbrahimbəyovun xatirəsi yad edilib //Mədəniyyət.- 2017.- 19 may.- S.8.
http://www.anl.az/down/meqale/medeniyyet/2017/may/543227.htm

**Mehriban Əliyeva: "Bədii ədəbiyyat hər bir insana bütün ömür boyu zəruri bünövrədir"**: [Xalq Yazıçısı, kinodramaturq və rejissor Maqsud İbrahimbəyovun xatirəsinə həsr olunmuş gecədə Birinci vitse-prezident xanım Mehriban Əliyeva çıxış etmişdir] /Mehriban Əliyeva //Azərbaycan.- 2017.- 17 may.- S.2.
http://www.anl.az/down/meqale/azerbaycan/2017/may/543273.htm

**2016**

**Anar**. Nəslin yarpaq tökümü [yazıçı Maqsud İbrahimbəyovun vəfatı ilə bağlı] /Anar //Ədəbiyyat qəzeti.- 2016.- 2 aprel.- S.3.
http://www.anl.az/down/meqale/edebiyyat/2016/aprel/484077.jpg

**Kazımzadə, A.** O, dünya şöhrətli sənətkar idi /Aydın Kazımzadə //Ədəbiyyat qəzeti.- 2016.- 2 aprel.- S.3.
http://www.anl.az/down/meqale/edebiyyat/2016/aprel/484083.jpg

**Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov** //Azərbaycan.- 2016.- 29 mart.- S.2.
http://web2.anl.az:81/read/page.php?bibid=vtls000482749

**Şarovski, A.** "Yalana və saxtakarlığa qarşı amansız idi" [yazıçı Maqsud İbrahimbəyovun vəfatı münasibətilə /Aleksandr Şarovski //Ədəbiyyat qəzeti.- 2016.- 2 aprel.- S.3.
http://www.anl.az/down/meqale/edebiyyat/2016/aprel/484086.jpg

**2015**

**Ağabalayeva, S.** Yaddaşın izi ilə: Maqsud İbrahimbəyov-80 /Südabə Ağabalayeva //Ədəbiyyat qəzeti.- 2015.- 16 may.- S.11.
http://www.anl.az/down/meqale/edebiyyat/2015/may/438691.jpg

**Qasımzadə, İ.** Yaşamaq istedadı: [Maqsud İbrahimbəyov haqqında] /İntiqam Qasımzadə //Azərbaycan: jurnal.- 2015.- №5.- S.39-41.
https://www.anl.az/down/meqale/azerbaycan_jurnali/2015/05/484911(meqale).pdf

**Yusifli, V.** Milli xarakterin koloritli təqdimatı: Maqsud İbrahimbəyov nəsri /Vaqif Yusifli //525-ci qəzet.- 2015.- 23 aprel.- S.6.
http://www.anl.az/down/meqale/525/2015/aprel/431965.htm

## 2013

**Baxşəliyev, R.** Maqsud İbrahimbəyov qardaşından fərqli yol tutdu /Rəşad Baxşəliyev //Azərbaycan.- 2013.- 19 iyun.- S.1.
http://www.anl.az/down/meqale/azerbaycan/2013/iyun/315205.htm

## 2012

**Tanınmış nasir, kinodramaturq, xalq yazıçısı Maqsud İbrahimbəyovun "Şikayət qəbul edilmir" kitabının təqdimat mərasimi keçirilmişdir** //Azərbaycan.- 2012.- 13 may.- S.6.
http://www.anl.az/down/meqale/azerbaycan/2012/may/15.htm

## 2010

**Ağabalayeva, S.** Tarix, ritm, karpentyer və İbrahimbəyov fraqmentləri /Südabə Ağabalayeva //Azərbaycan: jurnal.- 2010. - №5.- S.123-125.
https://www.anl.az/down/meqale/azerbaycan_jurnali/2010/05/507701(meqale).pdf

## 2007

**Əliyeva, E.** Düşünüb-daşındıran publisistika: [Yazıçı və dramaturq Maqsud İbrahimbəyovun "Baltimor skunsu" adlı kitabı haqqında] /Elmira Əliyev //Azərbaycan.- 2007. - 27 noyabr. - S.5.
https://www.anl.az/down/meqale/azerbaycan/2007/noyabr/38446(meqale).pdf

# ƏLAVƏLƏR

*Əlavə 1*

## ƏDƏBİYYAT, İNCƏSƏNƏT VƏ ARXİTEKTURA SAHƏSİNDƏ 1976-CI İL AZƏRBAYCAN SSR DÖVLƏT MÜKAFATLARİNIN VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN KP MƏRKƏZİ KOMİTƏSİNİN VƏ AZƏRBAYCAN SSR NAZİRLƏR SOVETİNİN QƏRARI

Azərbaycan KP Mərkəzi Komitəsi və Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR Nazirlər Soveti yanında Ədəbiyyat, İncəsənət və Arxitektura Sahəsində Azərbaycan SSR Dövlət Mükafatları Komitəsinin təklifini müzakirə edərək aşağıdakılara 1976-cı il Azərbaycan SSR Dövlət mükafatları verməyi qərara alırlar:

1. Azərbaycan SSR əməkdar incəsənət xadimi, şair Bəxtiyar Mahmud oğlu Vahabzadəyə - "Leninlə söhbət" və "Muğam" poemaları üçün.

2. Şair Qabil Allahverdi oğlu İmamverdiyevə - "Nəsimi" poeması üçün.

**3. Yazıçı Maqsud Məmmədibrahim oğlu İbrahimbəyova – "Bayquş gəldi" və "Yaxşılığa yamanlıq" povestləri üçün.**

4. Heykəltəraş İbrahim İsmayıl oğlu Zeynalova, arxitektor Hənifə Əlisgəndər oğlu Ələsgərova, arxitektor Ələsgər Nurəli oğlu Hüseynova, tikinti işlərinin rəhbəri Əlövsət İbrahim oğlu Əbdülrəhimova, mühəndis-konstruktor Yuri Dmitriyeviç Dubova - Naxçıvan şəhərində V.İ.Lenin memorialı üçün.

Azərbaycan SSR əməkdar incəsənət xadimi, bəstəkar Xəyyam Hadı oğlu Mirzəzadəyə - 2-ci simfoniya triptix üçün.

6. Azərbaycan SSR Elmlər Akademiyasının akademiki Məmmədcəfər Zeynalabdin oğlu Cəfərova - 1974-1975-ci illərdə yazılmış ədəbi-tənqidi əsərlər üçün.

***Azərbaycan KP MK katibi H.Əliyev***
***Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ə.İbrahimov***

*Əlavə 2*

## RESPUBLİKANIN ƏDƏBİYYAT XADİMLƏRİNƏ AZƏRBAYCAN SSR FƏXRİ ADLARININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə aşağıdakılara fəxri adlar verilsin:

AZƏRBAYCAN SSR XALQ YAZIÇISI
Ə.Əbülhəsən (Ələkbərzadə Əbülhəsən Əlibala oğlu)
Qasımov İmran Haşım oğlu
Əfəndiyev İlyas Məhəmməd oğlu
AZƏRBAYCAN SSR ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ
Abbaszadə Hüseyn Abbas oğlu
Cabir Novruz (Novruzov Cabir Mirzəbə oğlu)
**İbrahimbəyov Maqsud Məmmədibrahim oğlu**
İbrahimov İshaq İbrahim oğlu
Kürçaylı Əlağa Həsənoğlu oğlu
Nəbi Xəzri (Babayev Nəbi Ələkbər oğlu)
Fikrət Qoca (Qocayev Fikrət Göyüş oğlu)
Yusif Səmədoğlu (Vəkilov Yusif Səməd oğlu)
AZƏRBAYCAN SSR ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ
Babayeva Ələviyyə Hənifə qızı
Qafarov Vladimir Əbdüləzim oğlu
Məmməd Araz (İbrahimov Məmməd İnfil oğlu)

***Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Xəlilov***
***Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi G.Əbilova***
***Bakı şəhəri, 30 iyul 1979-cu il***

*Əlavə 3*

## M.M.İBRAHİMBƏYOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov "Şöhrət" ordeni ilə təltif edilsin.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 13 may 1995-ci il***
***№327***

*Əlavə 4*

## “XALQ YAZIÇISI” FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan nəşrinin inkişafındakı böyük xidmətlərinə görə

Əfəndiyev Elçin İlyas oğluna
**İbrahimbəyov Maqsud Məmmədibrahim oğluna**
İbrahimbəyov Rüstəm Məmmədibrahim oğluna
İbrahimov Hüseyn Məmmədəli oğluna
Naibov Əkrəm Nəcəf oğluna
Rzayev Anar Rəsul oğluna
Vəkilov Yusif Səməd oğluna

“Xalq yazıçısı” fəxri adı verilsin.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 23 may 1998-ci il***
***№708***

*Əlavə 5*

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" 2002-ci il 11 iyun tarixli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycanın elm və təhsil, mədəniyyət və incəsənət, iqtisadiyyat və dövlət idarəçiliyi sahələrində böyük xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Abbasov Fərzalı Hətəm oğlu
Abdullayev Əliquzu Muxtar oğlu
Abdullayev Süleyman Cümşüd oğlu
Ağadadaş Kərbəlayı oğlu
Anqbazova Məryəm Ömər qızı
Aslanova Zəminə Sərdar qızı
Afşarov Muxtar Həsən oğlu
Azayeva Çervon Əli qızı
Babayeva Nənəqız Rza qızı
Cabbarova Rəhilə Muxtar qızı
Cavadov Məmməd Kərim oğlu
Cəbiyeva Zeynəb Ağa qızı
Cəfərova Əminə Surxay qızı
Dadaşov Dadaş İkram oğlu

Eminov Əsgər Abdulla oğlu
Əhmədov Əhməd Dadaş oğlu
Əhmədov Qarakişi Əhliman oğlu
Əhmədov Mobil Salman oğlu
Əhmədov Sabir Atakişi oğlu
Əhmədov Sədrəddin Babaş oğlu
Əhmədov Zakir Bəkir oğlu
Ələkbərov Salman Məmmədhüseyn oğlu
Ələsgərov Sədrəddin Fərrux oğlu
Əliyev Hümbət Məmməd oğlu
Əliyeva Səmayə Dadaş qızı
Əliyeva Solmaz Səməd qızı
Əliyeva Şamama Tanrıverdi qızı
Əliyeva Ziyafət Mustafa qızı
Əmiralı Abdulla İslam oğlu
Əzimov Nəriman Abbasqulu oğlu
Hacıyev Yunis Muxtar oğlu
Heydərova Tamara Bəbir qızı
Həsənova Fatma Əkbər qızı
Həsənova Gülüstan Ağəli qızı
Həsənova Qızqayıt Salman qızı
Həsənova Mülayim Mehdi qızı
Həsənova Zalxay Mahmud qızı
Həsənova Zəminə Həsən qızı
Həsənova Züleyxa Əsgəralı qızı
Hümbətova Məleykə Yunis qızı
Hüseynov Bahadur Həkimxan oğlu
Hüseynov Həsən Abbas oğlu
Hüseynova Fatma Rza qızı
Xutrayeva Müzalifə Məhəmməd qızı

**İbrahimbəyov Maqsud Məmmədibrahim oğlu**
İbrahimbəyov Rüstəm Məmmədibrahim oğlu
İbrahimova Elza İmaməddin qızı
İsmayılov Yusif Abbas oğlu
İsrafilzadə Əbdüləhəd Hüseyn oğlu
Kazımov İbrahim Salman oğlu
Kazımov Oqtay Məmməd oğlu
Kərimova Aşafatma Hidayət qızı
Qarayeva Ülkər Mayıl qızı
Qasımov Tələt Məmmədağa oğlu
Qasımova Şəfiqə Qasım qızı
Qədimov Yuzef İslamoviç
Quliyev Boran Həbil oğlu
Quliyev Məhər Mustafa oğlu
Quliyeva Cənnət Baba qızı
Qurbanova Həvayət Hacı qızı
Qurbanova Tamara Məhəmməd qızı
Mehdiyeva Gülxara İzzət qızı
Mədətova Suğra Qəmbər qızı
Məmmədov İsa Əli oğlu
Məmmədov Nəriman Həbib oğlu
Məmmədova Asya Əli qızı
Məmmədova Humay Ələkbər qızı
Məmmədova (Mustafayeva) Sürmə Əhəd qızı
Məmmədova Yasəmən Niftalı qızı
Məmmədrəhimova Minarə Əbdüləli qızı
Mir Məmməd Mir Cəfər oğlu (Böyükağa Məmmədov)
Mirzəyev Musa Abdulla oğlu
Mirzəyev Sabir Nüsrət oğlu
Mollayeva Kərimət Mahama qızı

Muradova Mahrux Xəlil qızı
Mustafayev Feyruz Rəcəb oğlu
Namazova Həcər Ağakişi qızı
Novruzov Cabir Mirzəbəy oğlu (Cabir Novruz)
Orucov Qərib Əzizəli oğlu
Orucova Külputa Mənsim qızı
Pənahov Şəmşəd Tanrıqulu oğlu
Rəsulov Məmmədrza Rufulla oğlu
Ruhi Sahib Müseyib oğlu (Sahib Şükürov)
Rüstəmova Raziyə Əli qızı
Rzayev Şaban Mehdi oğlu
Salmanov Məmməd Hüseyn oğlu
Salmanov Sarvan Qarakişi oğlu
Səfərov Yaşar Abutalıb oğlu
Səmədov Baba Səməd oğlu
Sərkərov Nüsrət Nəriman oğlu
Sərkərova Gülüş Cəbrayıl qızı
Şaşıqoğlu Nodar İzzətoviç
Şəmmədova Xanımgül Həmid qızı
Şirinova Maral İbrahim qızı
Talıbova Bahar Məhərrəm qızı
Usubova Əsginaz Abduləli qızı
Verdiyeva Sədaqət Məcid qızı
Vəkilov Vaqif Səməd oğlu (Vaqif Səmədoğlu)
Vəliyeva Şərqiyə Əkbər qızı
Yaqubov Əlisəfa Əliheydər oğlu
Yolçiyeva Dilşad Vəli qızı
Zahidova Vəsilə Alı qızı
Zamanova Kübra Ağabala qızı
Zülfüqarova Xumar Rza qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 2 oktyabr 2002-ci il***
***№1049***

*Əlavə 6*

**M.M.İBRAHİMBƏYOVUN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan mədəniyyətinin inkişafındakı böyük xidmətlərinə görə Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 10 may 2005-ci il***
***№805***

*Əlavə 7*

**M.M.İBRAHİMBƏYOVUN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan teatr və kino sənətinin inkişafında böyük xidmətlərinə görə Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 7 may 2015-ci il***

*Əlavə 8*

## "MAQSUD İBRAHİMBƏYOV YARADICILIQ MƏRKƏZİ"NİN TƏSİS EDİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Görkəmli yazıçı, kinodramaturq və rejissor, Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı, Xalq yazıçısı Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov milli sənət xəzinəsini zənginləşdirən əsərləri ilə Azərbaycan mədəniyyəti salnaməsinə parlaq səhifələr yazmışdır. Onun bədii əsərlərini, eləcə də ssenariləri əsasında çəkilmiş filmləri oxucular və tamaşaçılar daim rəğbətlə qarşılamışlar.

Çoxəsrlik ənənələri olan Azərbaycan mədəniyyətinin inkişafına dəyərli töhfələr vermiş Xalq yazıçısı Maqsud İbrahimbəyovun xatirəsini əbədiləşdirmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturuna daxil olan "Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi"nin təsis edilməsi və fəaliyyətinin təmin olunması üçün "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə dövlət büdcəsindən əlavə 220 000 (iki yüz iyirmi min) manat vəsait ayrılsın.

2. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi"nin təsis edilməsi ilə əlaqədar təşkilati məsələləri iki ay müddətində həll etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin etsin;

3.3. bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş maliyyə vəsaitinin dövlət büdcəsindən ayrılmasını təmin etsin;

3.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 1 fevral 2018-ci il***

*Əlavə 9*

## Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi

Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi İçərişəhərdə yüz ildən çox yaşı olan binada yerləşir. Bu bina 1914-cü ildə yazıçının babası, neft sənayeçisi Ələkbər Məşədibəyovun sifarişi ilə məşhur memar Zivərbəy Əhmədbəyov tərəfindən tikilib. Burada Maqsud İbrahimbəyovun muzeyi, yazıçının kitabxanası, ədəbiyyat otağı yerləşir. Ədəbiyyat otağında yazıçının müxtəlif illərdə həm rus, həm Azərbaycan dillərində nəşr olunan, həm də 36 xarici dilə tərcümə edilən kitabları nümayiş etdirilir. Bundan başqa, eksponatlar arasında Maqsud İbrahimbəyovun ədəbi və ictimai-siyasi fəaliyyətinə görə müxtəlif vaxtlarda təltif olunduğu orden və medallar, digər mükafatlar, fəxri fərmanlar, həmçinin 2012-ci ildə yazıçının Nobel mükafatına namizədliyinə dair sənəd də var. Mərkəzdə xüsusi guşələrdən biri də Maqsud İbrahimbəyova məxsus silah kolleksiyasının nümayiş olunduğu zaldır. Maqsud İbrahimbəyovun kolleksiyasında dünyanın müxtəlif ölkələrindən gətirilən və ya dostları tərəfindən hədiyyə olunan qədim silahların nadir nümunələri var.















# Mündəricat

Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı............................3

İcmal haqqında.......................................................................................5

Ədəbiyyatımızın zadəgan nasiri........................................................6

Kitabları.......................................................................................12

Notlar.......................................................................................29

Haqqında.......................................................................................31

Əlavələr.......................................................................................37